# Tülkü ilə Canavar

© Azərbaycan Nağılları. 5 cilddə, 5-ci cild.
Azərbaycan SSR EA Nəşriyyatı, Bakı - 1964

Günlərin bir günü tülkü bərk acmışdı. Çox gəzdi, dolandı, bir bağın yanına çıxdı. Baxdı ki, tələdə bir parça quyruq var. Kənarda oturmuşdu, quyruğa baxırdı, ağzının suyu axırdı. Bu zaman bir canavar gəlib çıxdı. Tülküdən soruşdu:
—Tülkü baba, niyə quyruğu yemirsən?
Tülkü dedi:
—Orucam.
Canavar dedi:
—Mən oruc-zad deyiləm, yeyəcəyəm.
Tülkü dedi:
—Ye.
Canavar quyruğu yemək istəyəndə tələyə düşdü. Quyruq sıçrayıb kənara düşdü. Tülkü quyruğu götürüb yeməyə başladı. Canavar ondan soruşdu:
—Bəs orucdun?
Tülkü dedi:
—Ayı gördüm, odur ki, yeyirəm.
Canavar dedi:
—Bəs, mən nə vaxt ayı görəcəyəm?

Tülkü dedi:
—Tələnin sahibi gələndə.
Tülkü quyruğu təzəcə yeyib qurtarmışdı ki, tələ sahibi gəlib çıxdı. Tülkü:
—Canavar lələ, ay göründü, — deyə götürüldü.
Tələ sahibi canavarı görəndə dedi:
—Aha, mən səni çoxdan axtarırdım, yaxşı əlimə düşmüsən!
Canavar yalvarıb dedi:
—Axı, mənim günahım nədi? Yazığam, burax gedim.
Tələ sahibi dedi:
—Sənin günahın çoxdu, yazıq heyvanları parçalayıb yeyirsən.
Kişi sözünü qurtardı, ağacla canavarı döyüb öldürdü, dərisini soyub evinə apardı.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: oktyabr, 2003-cü il